# Ötən il inzibati ərazilərdə sosial-iqtisadi sahədə mühüm layihələr həyata keçirilib

## Qəbələni daha abad şəhərə çevirək

Qəbələ şəhər inzibati ərazi nümayəndəliyində 2017-ci ildə görülən işlərə dair hesabat yığıncağı keçirilib. Yığıncaqda ictimaiyyətin nümayəndələri, şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri iştirak ediblər.

İclası şəhər inzibati ərazi nümayəndəsi Dəmir Bağırov açaraq 2017-ci ildə ərazidə görülən işlər barədə hesabat verib.

Hesabat məruzəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə 2017-ci ildə respublikamızda həyata keçirilən böyük quruculuq işləri barədə iştirakçılara məlumat verilib. Qeyd olunub ki, iqtisadiyyatın tarazlı inkişafını təmin edən uğurlu siyasət ölkəmizi regionun aparıcı dövlətlərdən birinə çevirib.

Dəmir Bağırov bildirib ki, Azərbaycanın bu günkü inkişafı, tərəqqisi ölkə başçısı cənab İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasətin təntənəsidir. Ölkə başçısı tərəfindən regionlara göstərilən diqqət və qayğının nəticəsində bu gün rayonların, qəsəbə və kəndlərin siması dəyişir, hər yerdə böyük quruculuq işləri həyata keçirilir.





Məruzəçi çıxışında Azərbaycanın bu günkü inkişafı və tərəqqisi fonunda Qəbələ rayonunun, o cümlədən şəhərimizin öz sürətli inkişaf dövrünü yaşadığını qeyd edib. Burada görülən işlərin, həyata keçirilən layihələrin sayəsində Qəbələnin dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrildiyini və bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini vurğulayıb.

Şəhər əhalisinə göstərilən xidmətlərin yüksək səviyyədə təşkili üçün ərazi nümayəndəliyi tərəfindən bir sıra tədbirlərin hazırlanaraq həyata keçirildiyi, elektrik enerjisinə, mavi yanacağa, telefon və internet xidmətinə, içməli suya və kommunal xidmətlərə olan ehtiyacın ödənildiyi bildirilib.

Şəhərin su-kanalizasiya sisteminin yenidən qurulması layihəsinin ikinci mərhələsi istiqamətində tikinti-quraşdırma işlərinin davam etdirildiyi, şəhər əhalisinin və turistlərin istirahətinin təşkili üçün park və xiyabanlarda təmizlik, səliqə-sahman işlərinin aparıldığı diqqətə çatdırılıb. Qeyd olunub ki, şəhərin prospekt və küçələri müasir memarlıq üslubunda yenidən qurulub, yollara asfalt örtüklər döşənib, piyadalar üçün səkilər salınıb.

Məruzə ətrafında şəhər 3 nömrəli tam orta məktəbin direktoru Ədilə Əliyeva, şəhər 3 nömrəli körpələr evi-uşaq bağçasının müdiri Natəvan Əfəndiyeva və Qəbələ Su-Kanal İdarəsinin rəisi Tamerlan Həsənov çıxış edərək 2017-ci ildə Qəbələ şəhərində görülən abadlıq və quruculuq işlərini yüksək qiymətləndiriblər. Çıxış edənlər Qəbələnin sürətli inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Yığıncaqda iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları və yerli icra strukturları qarşısında qoyduğu vəzifələr barədə ətraflı məlumat verib. Natiq ölkə başçısı tərəfindən respublikanın hər bir guşəsinə olduğu kimi, Qəbələnin də inkişafına böyük diqqət və qayğı göstərildiyini, bu il rayonumuza 116 milyon manat investisiya qoyuluşu nəzərdə tutulduğunu, şəhərin su-kanalizasiya şəbəkələri tikintisinin, enerji təsərrüfatının yenidən qurulmasının, yeni uşaq bağçası tikintisinin başa çatdırılacağını, mərkəzi xəstəxana üçün yeni kompleksin inşasına və Qəbələyə dəmir yolunun çəkilişinə başlanacağını bildirib.

Abil Ağasəfov dövlət başçısının göstərdiyi diqqətin və qayğının bizdən daha yaxşı işləməyi tələb etdiyini və məsuliyyətimizi daha da artırdığını söyləyib.

Sonda rayon icra hakimiyyəti başçısının birinci müavini 2018-ci ildə Qəbələ şəhərində istər sosial-iqtisadi, istərsə də quruculuq, abadlıq işləri sahəsində daha geniş tədbirlərin həyata keçiriləcəyinə əminliyini bildirib.

Hesabat yığıncağında müvafiq qərar qəbul olunub.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**“Qəbələ”**

## Azərbaycan Gəncləri Günü qeyd olunub

Qəbələ Rayon Gənclər və İdman İdarəsi 2 fevral Azərbaycan Gəncləri Günü münasibətilə Heydər Əliyev Mərkəzində tədbir keçirib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən gənclərin toplaşdığı tədbir mərkəzin ekspozisiya zalında davam edib.



Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov tədbiri açaraq bildirib ki, müasir iqtisadi-siyasi, mədəni həyatımızda gənclər böyük çəkiyə malikdir. Müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün bu gün sağlam düşüncəyə malik yeni nəsil gənclər yetişməkdədir. Bildirilib ki, ölkə gəncliyi Azərbaycanda düzgün qurulmuş ideya-siyasi işin nəticəsində ulu öndər Heydər Əliyevin siyasətini ardıcıl şəkildə həyata keçirən Prezident İlham Əliyevin ətrafında sıx birləşərək vətənimizin daha da inkişaf etməsi, güclənməsi naminə fədakarlıq göstərirlər.

Gənclər və idman idarəsinin rəis müavini Müşviq Abbasov 2017-ci ildə görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova RİH-nin başçısı Səbuhi Abdullayevin təbrikini gənclərə çatdırıb. O, Azərbaycanda dövlət gənclər siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və möhtərəm Prezidentimizin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğı sayəsində ölkəmizə gələcəyimizə layiq böyük gənclər ordusu yarandığından söz açıb.

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva, turizm otelçilik üzrə peşə tədrisi mərkəzinin müəllimi Səbinə Cahangirli, uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edib.

Yekunda ötən il müxtəlif sahələr üzrə nailiyyət qazanan, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup fəal gənc Fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırılıb.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

## 2018-ci ilin fevral ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

2018-ci ilin yanvar ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları

Əlavə dəyər vergisi bəyannaməsi,

Aksiz bəyannaməsi,

Yol vergisi bəyannaməsi,

Mədən vergisi bəyannaməsi,

Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və

Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi cari ilin fevral ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin ferval ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

Muzdlu işlə əlaqədar 2018-ci ilin yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 1-ci rübü üzrə bəyannaməni cari ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edirlər).

Xüsusi notariusların 2018-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi cari ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2018-ci ilin 1-ci rübü üzrə bəyannamə car ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Əmlak vergisinin ödəyiciləri olan müəssisələr 2018-ci ilin 1-ci rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini fevral ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

* * *

Əmlak vergisi üzrə cari ödəmələrin son müddəti 15.02.2018-ci ildir.

ƏDV, Aksiz, Yol və Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 20.02.2018-ci ildir.

Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsinin və Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 20.02.2018-ci ildir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannəməsinin təqdim edilməsinin son müddəti 20.02.2018-ci ildir.

Cari ilin yanvar ayı üzrə Xüsusi notariusların hesabladığı gəlir vergisinin və Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin ödənilməsinin son müddəti 20.02.2018-ci ildir.